# Sabitliyin, tərəqqinin və strateji idarəçiliyin uğurlu sintezi



**2018-ci ilin aprelində keçirilmiş növbədənkənar prezident seçkiləri ölkənin daxili siyasi kursunun davamlılığı və institusional sabitliyi baxımından mühüm əhəmiyyət daşıyırdı. Bu seçkilərin nəticələrinə əsasən İlham Əliyev 86,02 faiz səslə qalib gələrək dördüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Səsvermənin nəticələri cəmiyyətin geniş təbəqələrinin mövcud siyasi kursa verdiyi dəstəyi və hakimiyyətin legitimliyinin demokratik prosedurlar çərçivəsində təsdiqini ifadə edirdi. Seçkilərdən bir həftə sonra - aprelin 18-də Milli Məclisdə Prezidentin andiçmə mərasimi keçirildi.**

Prezident İlham Əliyev and içərək Konstitusiyaya sadiqliyini bəyan etdikdən sonra çıxış etdi: "Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Müstəqilliyin bərpasından sonra Azərbaycan müxtəlif çağırışlar və tarixi dönüş nöqtələri ilə üzləşsə də, son illər bütün sahələrdə ardıcıl və davamlı inkişafa nail olmaq beynəlxalq miqyasda nümunəvi idarəçilik modelini təsdiqləyib. Bu modelin əsas xüsusiyyəti strateji düşüncəyə əsaslanan çevik dövlət idarəçiliyi, sosial rifahın yüksəldilməsinə yönəlmiş ardıcıl islahatlar və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlardır. Mövcud qlobal qeyri-müəyyənlik, geosiyasi qarşıdurmalar və iqtisadi təlatümlər fonunda Azərbaycan sabitlik və inkişaf adası kimi tanınır. Bu isə düşünülmüş və sistemli dövlət siyasətinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin siyasi fəaliyyəti dövründə Azərbaycanda bütün sahələrdə keyfiyyətcə yeni mərhələyə keçid təmin olunub: infrastruktur yenilənib, sosial layihələr genişləndirilib, milli təhlükəsizlik gücləndirilib, beynəlxalq arenada ölkənin rolu əhəmiyyətli dərəcədə artıb. Ən önəmlisi isə ölkə rəhbərinin verdiyi vədlər yalnız bəyanat səviyyəsində qalmayıb, praktiki nəticələrlə müşayiət olunub. Xalqla iqtidar arasında qarşılıqlı etimada əsaslanan münasibət, dövlət siyasətində şəffaflığın və hesabatlılığın gücləndirilməsi, milli maraqların qətiyyətlə qorunması Azərbaycanın siyasi arxitekturasının təməl sütunlarıdır.

**(davamı 6-cı səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Ölkənin iqtisadi inkişafına gəldikdə, burada strateji yanaşma daha aydın görünür. Neft gəlirlərinin səmərəli idarə olunması və qeyri-neft sektoruna yönləndirilməsi sayəsində Azərbaycanın iqtisadiyyatı postsovet məkanında dayanıqlı diversifikasiya nümunəsinə çevrilib. Sahibkarlığın dəstəklənməsi və sosial bərabərliyin qorunması, hüquqi bazanın gücləndirilməsi, rəqabətli mühitin təşviqi və institusional islahatlar bu inkişafın dayanıqlılığını təmin edən əsas faktorlardandır. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar iqtisadiyyatın struktur səviyyəsində modernləşdirilməsinə, istehsal və ixrac potensialının genişləndirilməsinə, eləcə də ölkədə rəqabətqabiliyyətli iqtisadi modelin formalaşdırılmasına xidmət edir. Sözügedən normativ-hüquqi sənədlər milli iqtisadiyyatın strateji xəritəsinin konseptual çərçivəsidir. Əldə edilən nailiyyətlər büdcə gəlirlərinin artımı, qeyri-neft sektorunun canlanması və sosial-iqtisadi sabitliyin təmin olunması ilə müşayiət olunmuşdur. İqtisadi model təkcə resurslar üzərində deyil, həm də səmərəli idarəetmə və çevik iqtisadi adaptasiya imkanları üzərində qurulmuşdur. Bu istiqamətdə mühüm addımlardan biri də dövlət başçısının imzaladığı fərmanla təsdiqlənmiş Strateji Yol Xəritəsidir. Həmin sənədlərdə iqtisadiyyatın prioritet sahələri üzrə konkret hədəflər, resurs bölgüsü, idarəetmə mexanizmləri və zaman kəsiyinə uyğun inkişaf indikatorları müəyyənləşdirilib. Bu yanaşma qısa, orta və uzunmüddətli planlaşdırma kontekstində milli iqtisadiyyatın inkişafını təmin edib.

2003-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatına yatırılan 250 milyard ABŞ dolları həcmində sərmayə ölkənin beynəlxalq iqtisadi mühitə inteqrasiyasının fundamental göstəricidir. Bu investisiyalar müstəqillik dövründə ölkəyə daxil olan ümumi sərmayənin 93 faizini təşkil edərək həm neft sektorunun modernləşdirilməsinə, həm də qeyri-neft sektorunun inkişafına yönəldi. Sərmayə cəlbediciliyinin artması isə təkcə təbii resurs potensialı ilə deyil, ölkədə həyata keçirilən ardıcıl islahatlar, şəffaflıq meyarlarının gücləndirilməsi və hüquqi mühitin liberallaşdırılması ilə mümkün oldu. Azərbaycanın bu dövrdə qlobal iqtisadi reytinqlərdə sürətlə irəliləməsi təsadüfi deyildi. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Davos İqtisadi Forumu kimi nüfuzlu beynəlxalq maliyyə institutlarının rəy və hesabatlarında Azərbaycanın həyata keçirdiyi iqtisadi islahatlar yüksək qiymətləndirildi. Xüsusilə, 2017-ci il "İnklüziv İnkişaf İndeksi"ndə Azərbaycanın 80 inkişaf etməkdə olan ölkə arasında 3-cü yerə yüksəlməsi sosial-iqtisadi inkişafın inklüzivlik əsasında həyata keçirildiyini və geniş əhali kütlələrini əhatə etdiyinin göstəricisidir.

Ölkənin enerji diplomatiyası bu illərdə yeni mərhələyə qədəm qoymuşdur. Enerji resurslarının beynəlxalq bazarlara şaxələndirilmiş marşrutlarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət Azərbaycanın qlobal enerji təhlükəsizliyi sistemində mühüm həlqəyə çevrilməsini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və sonrakı mərhələdə Cənub Qaz Dəhlizi kimi layihələr Azərbaycanın təşəbbüskarlığını nümayiş etdirmişdir. Bu infrastruktur xəritəsi geosiyasi sabitliyin, enerji təhlükəsizliyinin və regional əməkdaşlığın möhkəmlənməsi baxımından xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi fikirlər bunu bir daha təsdiqləyir: "Cənub Qaz Dəhlizi" layihələrinin üçü bu il istifadəyə veriləcəkdir - "Şahdəniz-2", "Cənubi Qafqaz Kəməri" və TANAP. Biz artıq Avropanın, Avrasiyanın enerji xəritəsini dəyişdirmişik. Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik".

Nəqliyyat infrastrukturunun inkişafı Azərbaycanın tranzit ölkə statusunu gücləndirmiş, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən qlobal logistik qovşağa çevrilməsinə şərait yaratmışdır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Şimal-Cənub nəqliyyat dəhlizi kimi layihələr Azərbaycanın geoiqtisadi maraqlarının təmin olunması və beynəlxalq ticarət sistemində strateji mövqe qazanması baxımından xüsusi önəm kəsb edir.

Mədəniyyət, idman və ekoloji sahədə aparılan məqsədyönlü işlər, xüsusilə Bakı və regionlarda beynəlxalq səviyyəli tədbirlərin təşkili, Azərbaycanı qlobal xəritədə tanıdan yumşaq güc alətlərinin inkişafına təkan verdi. Prezident İlham Əliyevin seçkilərdə ardıcıl olaraq yüksək səs çoxluğu ilə qalib gəlməsi məhz sosial-iqtisadi sabitliyin, real inkişafın nəticəsi kimi qiymətləndirilir. Siyasi etimadla sosial nəticələr arasındakı bu uzlaşma Azərbaycan modelinin xüsusiyyətləridir. Digər tərəfdən, bu dövr Azərbaycanın xarici siyasət kursunun formalaşması və beynəlxalq mövqelərinin möhkəmlənməsi baxımından da dönüş mərhələsi olmuşdur. İqtisadi dayanıqlıq və daxili sabitlik fonunda həyata keçirilən müstəqil və prinsipial xarici siyasət kursu ölkənin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanın xarici siyasət strategiyasında başqa dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsas təmələ çevrilmişdir. Bu, regionda və onun hüdudlarından kənarda Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş kimi qəbul olunmasını şərtləndirmişdir. 2004-cü ildə Avropa Qonşuluq Siyasətinə qoşulması ölkəmizin Avropa məkanına inteqrasiya istiqamətində atdığı ilk sistemli addım kimi qiymətləndirilir. Bu çərçivədə reallaşan layihələr iqtisadi və hüquqi sahələrdə Avropa standartlarına uyğunlaşmanı təşviq etdi. 2006-cı ildə Avropa İttifaqı ilə imzalanan enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu isə respublikamızın enerji diplomatiyasının uğurlu nümunəsi olmaqla yanaşı, ölkəmizin Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş statusunu təsdiqlədi. Bu sənəd neft-qaz ixracına dair razılaşma olmaqdan əlavə, Azərbaycanın geosiyasi mövqeyinin möhkəmlənməsi, enerji tranzit marşrutlarının diversifikasiyası və qlobal enerji bazarında aktor statusunun təsdiqi idi. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi isə ölkənin diplomatik fəaliyyətinin kulminasiya nöqtəsi oldu. 193 dövlətdən 155-nin dəstəyini almaq, beynəlxalq ictimaiyyətin Azərbaycan siyasətinə və beynəlxalq davranışına göstərdiyi yüksək etimadın, ölkəmizin qlobal məsələlərdə söz sahibinə çevrilmək potensialının göstəricisi oldu.

Müasir dünyanın mürəkkəb siyasi və mədəni mənzərəsində Azərbaycan özünü sivilizasiyalar arasında körpü rolunu oynayan nadir ölkələrdən biri kimi təsdiqləmişdir. Tarixi-coğrafi mövqeyi, sosial strukturu və etnik-mədəni müxtəlifliyi ölkəmizi təkcə Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada multikulturalizm və dini-mədəni tolerantlıq nümunəsi kimi ön plana çıxarmışdır. Azərbaycanın multikultural dəyərlər əsasında formalaşan dövlət siyasəti, həm də daxili harmoniya qlobal dialoqa töhfə baxımından strateji əhəmiyyət daşıyır. Müxtəlif etnik və dini icmaların hüquqlarının təmin olunması, onların dil, mədəniyyət və dini dəyərlərinin qorunması Azərbaycanın hüquqi-siyasi sistemində prioritetdir. Bu model özünü ictimai rəyin və gündəlik həyat tərzinin formalaşmasında da göstərir. Azərbaycan Dünya Dini Liderlərinin Zirvə Toplantısı, Mədəniyyətlərarası Dialoq Forumu kimi təşəbbüslərlə beynəlxalq mədəni platformalarda fəal iştirak etmiş, BMT, UNESCO, ISESCO kimi qurumlarla əməkdaşlıq çərçivəsində qlobal multikultural təhlükəsizlik diskursuna praktik töhfələr vermişdir.

Gənclər siyasəti həm də dövlətin mədəni strateji davamlılıq və ayrılmaz tərkib hissəsidir. Çünki gənclik - yalnız gələcəyin daşıyıcısı deyil, eyni zamanda bu günün siyasi və mədəni kodlarını qəbul edən, onu yeni formatda yaradan qüvvədir. Azərbaycan dövləti son illər ərzində gənclərlə bağlı həyata keçirdiyi proqramlar və institusional mexanizmlərlə bu sahədə uzunmüddətli və sistemli yanaşma ortaya qoymuşdur. Əsas məqsəd dövlətçilik ənənələrinə sadiq, milli-mənəvi dəyərlərlə inteqrasiya olunmuş, eyni zamanda müasir dünyagörüşə və innovativ potensiala malik gənc nəslin yetişməsidir. Bu məqsədə çatmaq üçün gənclərin təhsil imkanları genişləndirilmiş, onların beynəlxalq mübadilə proqramlarında iştirakı dəstəklənmiş, startaplar, innovasiya mərkəzləri, gənclər təşkilatları üçün əlverişli hüquqi və iqtisadi mühit formalaşdırılmışdır. "Azərbaycan Gəncliyi 2017-2021" və "Azərbaycan Gəncliyi 2022-2026" dövlət proqramları bu baxımdan məqsədyönlü və ardıcıl siyasətin konkret planlarla müşayiət olunduğunu göstərir. Eyni zamanda gənclərin idarəetmə sistemində iştirakına, könüllülük və vətəndaş cəmiyyəti institutlarında fəallaşmasına yönəlmiş təşəbbüslər onların ictimai identikliklərinin möhkəmlənməsinə və dövlətlə cəmiyyət arasında interaktiv əlaqənin dərinləşməsinə xidmət edir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra prioritet sahələrdən biri məhz ordu quruculuğu olmuşdur. Prezident İlham Əliyevin strateji yanaşmasının nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri müasir hərbi texnologiyalara, yüksək peşəkar hazırlığa və kompleks müdafiə sisteminə sahib bir quruma çevrilmişdir. Beynəlxalq reytinqlərdə Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasındadır və bu potensialını 2016-cı ilin Aprel döyüşləri zamanı nümayiş etdirdi. Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində həyata keçirdiyi təxribatlara cavab olaraq yüksək taktiki koordinasiyaya əsaslanan əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə Cocuq Mərcanlı kəndi, Lələtəpə yüksəkliyi və digər strateji mövqelər azad edildi. Həm daxili siyasi mühitdə, həm də beynəlxalq arenada bu uğur xalq-iqtidar-ordu birliyinin təcəssümünə çevrildi. Cocuq Mərcanlının yenidən qurulması, burada dövlət bayrağımızın dalğalanması və həyatın normal axarına qaytarılması isə Böyük Qayıdış konsepsiyasının ilk praktik ifadəsi kimi tarixə düşdü. Aprel döyüşlərindən sonra Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmləndirildi və peşəkarlıq səviyyəsi daha da yüksəldildi. Müxtəlif növ müasir silah sistemləri, o cümlədən PUA texnologiyaları, elektron müharibə avadanlıqları və döyüş zamanı koordinasiya imkanları ilə təchizat intensivləşdirildi. Eyni zamanda milli hərbi sənaye kompleksinin inkişafı və lokal istehsal potensialının artırılması Azərbaycanı xarici asılılığı minimuma endirən ölkələrdən birinə çevirdi. Bu reallıq 2020-ci ilin payızında başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi zamanı tam şəkildə özünü göstərdi. Azərbaycan Silahlı Qüvvələri ölkə başçısının komandanlığı ilə tarixi ədaləti və beynəlxalq hüququn tələblərini təmin edərək, 30 ilə yaxın müddətdə işğal altında olan ərazilərini azad etdi. Hərbi planlaşdırma, diplomatik çeviklik və informasiya müharibəsində yüksək koordinasiya ilə müşayiət olunan proses, əslində, uzun illər ərzində formalaşdırılmış strateji baxışın zirvəsi idi. Prezident İlham Əliyevin 44 günlük müharibə zamanı sərgilədiyi liderlik məharəti, ənənəvi dövlət başçısı çərçivəsini aşaraq sərkərdə - informasiya müharibəsinin aparıcı siması funksiyalarını özündə birləşdirdi. 2020-ci ildə qazanılan qələbə Azərbaycan tarixində yeni mərhələnin başlanğıcı oldu. Bu mərhələnin bünövrəsi isə 2018-ci ildə keçirilən prezident seçkiləri zamanı qoyulmuşdu. Xalqın etimadı ilə yenidən prezident seçilən İlham Əliyevin qısa müddət sonra ölkəni postmünaqişə dövrünə keçid edirəcək strateji zəfəri təmin etməsi həm seçkilərin, həm də liderin tarixi missiyasını daha aydın göstərdi.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika.- 2025.- 18 aprel(№76).- S.1;6.